Azərbaycan müəllimi

15 oktyabr / 2021

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 15 sentyabr tarixli 547s nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 15 sentyabr tarixli 547s nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 15 sentyabr tarixli 547s nömrəli Sərəncamı icra və rəhbərlik üçün qəbul edilsin.

**2.** 2021/2022-ci tədris ili üçün Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələri üzrə tələbə qəbulu yerlərinin bölgüsü təsdiq edilsin (əlavə olunur).

**3.** 2021/2022-ci tədris ili üçün "Profi-resurs" Peşə Tədris Mərkəzi üzrə tələbə qəbulu yerlərinin bölgüsü təsdiq edilsin (əlavə olunur).

**4.** Peşə Təhsili üzrə Dövlət Agentliyinə (V.Mirzalıyev) tapşırılsın:

4.1. işəgötürən təşkilat və müəssisələrin tələbatına uyğun tələbə qəbulu yerlərinin bölgüsündə dəyişiklik edilməsi zərurəti yarandıqda, bu barədə təkliflərini Təhsil Nazirliyinə təqdim etsin;

4.2. tələbə qəbulu yerlərinin bölgüsünün peşə təhsili müəssisələrinə çatdırılmasını təmin etsin.

**5.** İnformasiya və vətəndaşlara xidmət şöbəsi (R.Xanlarov) bu əmrin surətinin göndərilmə siyahısına uyğun çatdırılmasını təmin etsin.

**6.** İctimaiyyətlə əlaqələr sektoru (C.Valehov) bu əmrin "Azərbaycan müəllimi" qəzetində və "Peşə təhsili və insan kapitalı" jurnalında dərc edilməsini təmin etsin.

**7.** Əmrin icrasına nəzarət nazir müavini İdris İsayevə həvalə olunsun.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*28 sentyabr 2021-ci il*